QASIM ƏLİYEV

# MÜHAFİZƏÇİ ÜÇÜN YADDAŞ
# A-dan Z-yə

# MÜƏLLİFDƏN ÖN SÖZ

Mühafizəçi peşəsi müasir cəmiyyətin təhlükəsizlik sistemində, sosial və iqtisadi sabitliyin qorunmasında, ictimai asayişin və vətəndaş hüquqlarının təminində əvəzsiz rol oynayır. Peşəkar mühafizəçi fəaliyyəti cəmiyyətin rifahı, insanların və dövlətin maraqları üçün vacibdir.

Azərbaycanda mühafizəçi peşəsinin inkişafı ölkənin iqtisadi, sosial və hüquqi dəyişiklikləri ilə paralel şəkildə gedir. Bu prosesdə ixtisaslaşmış mühafizə şirkətləri, dövlət və özəl obyektlərdə fəaliyyət göstərən peşəkar mühafizəçi heyətləri formalaşıb, bu sahədə kadr hazırlığı və texniki təminat gücləndirilib. Bununla belə, mühafizəçilərin davamlı olaraq hazırlığı prosesində mühafizənin bütün aspektləri əks olunmuş yığcam bir kitabın olmaması, mühafizəçilərin kefiyyətli və hərtərəfli bilik və bacarıqlara sahib olmasına çətinlik yaradırdı. Düşünürəm ki, bu baxımdan təqdim olunan bu kitab qeyd olunan boşluğu doldurmağa imkan vermiş olacaq.

Peşəkar mühafizəçi olmaq üçün yalnız fiziki güc deyil, həm də zehni çeviklik, mühafizənin hüquqi əsasları, psixoloji dayanıqlıq, çevik qərarvermə qabiliyyəti, müasir rəqəmsal texnologiyaların imkanlarından istifadə etmək bacarıqları, streslərə davamlılıq, yorğunluğun götürülməsi üçün əməli tədbirlər, həkiməqədər ilkin yardım, yanğın təhlükəsizliyi və s. üzrə mühüm bilik və bacarıqlar vacibdir.

İşin mahiyyətindən irəli gələn təhlükəli, fövqəladə və gözlənilməz hallar üçün mühafizəçi daim hazırlıqlı olmalı, təxirəsalınmaz tədbirlər görməli, operativ düşünə və sürətli reaksiya verə bilməlidir. Mühafizəçi xüsusi olaraq psixoloji cəhətdən hazırlıqlı olmalı və bu baxımdan diqqətin dağılmamasına, yaranan vəziyyətlərə fokuslanmağa, istənilən şəraitdə soyuqqanlı qalmağa, təzyiqə və emosional gərginliyə dözümlü olmağa və insanlarla ünsiyyətdə nəzakətə və etik davranışa önəm verməlidir. Bu baxımdan, müha-

fizəçi üçün qeyd olunan vacib bilik və bacarıqlar bu kitabın uyğun bölmələrində əks olunmuşdur.

Kitab, 15 il özəl mühafizə şirkətində məsləhətçi qismində işlədiyim dövrdəki və həmçinin 40 illik SƏTƏMM sahəsindəki bilik və təcrübəyə əsaslanaraq tərtib olunmuşdur.

Ümid edirəm ki, bu kitab sizə işinizdə daha inamlı, daha bacarıqlı, daha səmərəli və ən əsası daha təhlükəsiz iş qurmağa yardımçı olacaq.

*Qasım Əliyev*

# MÜNDƏRİCAT


Hissə 1. HÜQUQİ HAZIRLIQ ......................................................7

Hissə 2. XÜSUSİ TAKTİKİ HAZIRLIQ ....................................23

Bölmə 1. Obyektlərin mühafizəsinin təşkili ................................23

Bölmə 2. Müxtəlif təyinatlı obyektlərin mühafizə qaydası .........28

Hissə 3. XÜSUSİ FİZİKİ HAZIRLIQ.........................................71

Bölmə 1. Qayda pozmuş şəxsi saxlamaq və müşayiət etmək ......71

Bölmə 2. Bədənin müxtəlif hissələrindən tutmaqdan və ikiəlli yapışmalardan azadolma ..................................................75

Bölmə 3. Soyuq silah zərbələrindən və ya soyuq silah qismində istifadə olunan alətlərdən qorunma. ..........85

Bölmə 4. Odlu silahla hədələr zamanı müdafiə ......................... 101

Bölmə 5. Qrup halında hücumlardan müdafiə taktikasının ümumi müddəaları................................................ 110

Hissə 4. PSİXOLOJİ HAZIRLIQ ............................................. 114

Hissə 5. YANĞIN TƏHLÜKƏSİZLİYİ .................................. 163

Hissə 6. MÜHAFİZƏ SİSTEMLƏRİ VƏ TEXNİKASI .......... 179

Hissə 7. HƏKİMƏQƏDƏR İLKİN YARDIM .......................... 186

Bölmə 2. Qanaxmalar və amputasiya zamanı ilkin yardım.......190

Bölmə 3. Sınıqlar zamanı ilkin yardım.......................................195

Bölmə 4. Yanıqlar zamanı ilkin yardım.......................................199

Bölmə 5. Nəfəs yolunda yad cismin qalması (boğulma) zamanı ilkin yadım. Heymlix üsulu ..........................................204

Bölmə 6. Göz zədələnmələri zamanı ilkin yardım .....................208
Bölmə 7. Qıcolmalar zamanı ilkin yardım................................. 211
ƏLAVƏLƏR ........................................................................ 214
Əlavə 1 ............................................................................... 214
Əlavə 2 ............................................................................... 219
Əlavə 3 ...............................................................................224
Əlavə 4 ...............................................................................228
Əlavə 5 ...............................................................................234
Əlavə 6 ...............................................................................238

# HİSSƏ 1. HÜQUQİ HAZIRLIQ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 10 aprel 2007-ci il tarixində təsdiqlənmiş "Qeyri-dövlət (özəl) mühafizə fəaliyyəti haqqında Azərbaycan Respublikası qanunu"na əsasən qeyri-dövlət (özəl) mühafizə fəaliyyətinə belə izah verilir: "Qeyri-dövlət (özəl) mühafizə müəssisəsi və ya hüquqi şəxsin mühafizə bölməsi tərəfindən fiziki və ya hüquqi şəxslərin mülkiyyətinin hüquqa zidd qəsdlərdən qorunması məqsədi ilə qeyd olunan Qanunun 5-ci maddəsində nəzərdə tutulan mühafizə xidmətlərinin göstərilməsi".

**Qeyri-dövlət (özəl) mühafizə fəaliyyətində əsas anlayışlar**

**1)** ***qeyri-dövlət (özəl) mühafizə müəssisəsi (bundan sonra "özəl mühafizə müəssisəsi")*** – fiziki və ya hüquqi şəxslə bağlanmış müqavilə əsasında adı gedən Qanunun 5-ci maddəsində nəzərdə tutulan mühafizə xidmətlərini göstərən, müvafiq qaydada dövlət qeydiyyatından keçmiş və müvafiq icra hakimiyyəti orqanından xüsusi razılıq (lisenziya) almış hüquqi şəxs;

**2)** ***hüquqi şəxsin mühafizə bölməsi*** – hüquqi şəxsin öz mühafizəsini təmin etmək məqsədi ilə tərkibində yaradılan, müvafiq icra hakimiyyəti orqanından alınmış xüsusi razılıq (lisenziya) əsasında fəaliyyət göstərən struktur qurumu;

**3)** ***mühafizəçi*** – xüsusi hazırlıq keçmiş, bu Qanunla müəyyən edilmiş qaydada özəl mühafizə müəssisəsində və ya hüquqi şəxsin mühafizə bölməsində əmək müqaviləsi (kontraktı) ilə işləyən Azərbaycan Respublikasının vətəndaşı;

**4)** ***mühafizə olunan obyekt*** **–** özəl mühafizə müəssisəsi və ya hüquqi şəxsin mühafizə bölməsi tərəfindən hüquqa zidd qəsdlərdən mühafizə edilən daşınmaz (binalar, tikililər, qurğular, ərazilər və s.) və burada yerləşən daşınar əmlak (nəqliyyat vasitələri, avadanlıqlar, pul vəsaitləri, qiymətli əşyalar və s.);

**5)** ***buraxılış rejimi*** – şəxslərin və ya nəqliyyat vasitələrinin mühafizə olunan obyektə nəzarətsiz girişi (çıxışı), habelə bu obyektə əmlakın nəzarətsiz gətirilməsi və ya bu obyektdən əmlakın nəzarətsiz çıxarılması imkanlarını istisna edən qayda və tədbirlərin məcmusu;

**6)** ***obyektdaxili rejim*** – mühafizə olunan obyektin hüdudlarında müəyyən edilən qayda və tədbirlərin məcmusu.

**Özəl mühafizə fəaliyyəti haqqında qanunvericilik**

Özəl mühafizə fəaliyyəti haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, bu Qanundan, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarından və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən ibarətdir.

**Özəl mühafizə fəaliyyətinin prinsipləri**

1. Özəl mühafizə fəaliyyəti qanunçuluq, humanizm, insan, vətəndaş hüquq və azadlıqlarına hörmət prinsipləri əsasında həyata keçirilir.

2. Özəl mühafizə fəaliyyəti dövlət orqanları, o cümlədən, hüquq mühafizə orqanlarının fəaliyyətini məhdudlaşdırmamalı, üçüncü şəxslərin hüquq və azadlıqlarını pozmamalıdır.

Özəl mühafizə fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar göstərilən mühafizə xidmətlərinin növləri aşağıdakılardır:

1. Özəl mühafizə fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar aşağıdakı mühafizə xidmətləri göstərilə bilər:

1.1. *mühafizə olunan obyektlərin qorunması;*

1.2. *mühafizə olunan obyektlərdə buraxılış və obyektdaxili rejimlərin təmin edilməsi;*

1.3. *mühafizə olunan obyektlərdə təhlükəsizlik siqnalizasiyası avadanlıqlarının layihələşdirilməsi, quraşdırılması və istismarı ilə əlaqədar texniki xidmətlərin göstərilməsi;*

1.4. *hüquqa zidd qəsdlərdən mühafizə məsələləri ilə bağlı fiziki və hüquqi şəxslərə tövsiyələrin hazırlanması.*

2. Özəl mühafizə müəssisələri və hüquqi şəxslərin mühafizə bölmələri tərəfindən bu Qanunla nəzərdə tutulmayan mühafizə xidmətlərinin göstərilməsi qadağandır.

Özəl mühafizə fəaliyyətinin xüsusiyyətlərinə aşağıdakılar aiddir:

1. Adı gedən Qanunun 5-ci maddəsində göstərilən mühafizə xidmətləri yalnız bu məqsədlə təsis edilmiş, müvafiq xüsusi razılıq (lisenziya) almış özəl mühafizə müəssisəsi və ya hüquqi şəxsin mühafizə bölməsi tərəfindən həyata keçirilə bilər.

2. Özəl mühafizə fəaliyyəti dövlət mühafizəsi obyektlərinə, siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən və dövlət orqanları tərəfindən mühafizə olunan obyektlərə münasibətdə həyata keçirilmir.

3. Özəl mühafizə fəaliyyətində fiziki şəxslərin həyat və sağlamlığına, ətraf mühitə zərər vurmayan texniki və digər vasitələrdən, operativ radio və telefon rabitəsindən qanunvericiliklə müəyyən edilmiş qaydada istifadə etməyə icazə verilir.

**Özəl mühafizə müəssisəsi**

1. Özəl mühafizə müəssisəsi qanunvericiliyə müvafiq olaraq, hüquqi şəxsin dövlət qeydiyyatı haqqında şəhadətnaməsi, nizamnamə və özəl mühafizə fəaliyyətini həyata keçirmək üçün xüsusi razılıq (lisenziya) əsasında fəaliyyət göstərir.

2. Özəl mühafizə müəssisələri sahibkarlıq fəaliyyətinin digər növləri ilə məşğul ola bilməz.

3. Özəl mühafizə müəssisəsi mühafizə xidmətlərinin göstərilməsi üçün fiziki və ya hüquqi şəxslərlə mülki qanunvericiliklə və bu Qanunla müəyyən edilmiş qaydada yazılı formada müqavilə bağlamalıdır.

4. Mühafizə xidmətlərinin göstərilməsi ilə əlaqədar özəl mühafizə müəssisəsi ilə fiziki və ya hüquqi şəxs arasında bağlanan müqavilədə aşağıdakılar göstərilməlidir:

*4.1. tərəflər haqqında məlumatlar, o cümlədən, özəl mühafizə müəssisəsinə verilmiş xüsusi razılığın (lisenziyanın) nömrəsi və verildiyi tarix;*

*4.2. özəl mühafizə müəssisəsi tərəfindən göstəriləcək mühafizə xidmətlərinin növləri;*

*4.3. tərəflərin hüquq və vəzifələri;*

*4.4. göstərilən mühafizə xidmətlərinin qiyməti;*

*4.5. müqavilənin bağlandığı tarix və qüvvədə olduğu müddət;*

*4.6. müqavilə şərtlərinin pozulmasına görə tərəflərin məsuliyyəti.*

5. Müqavilə, onun icrası ilə bağlı materiallar və digər sənədlər özəl mühafizə müəssisəsi tərəfindən müqavilənin qüvvədə olduğu, lakin 3 ildən az olmayan müddətdə saxlanılmalıdır.

6. Özəl mühafizə müəssisəsinə mühafizəçi vəzifəsinə qəbul bu Qanunun 9-cu maddəsinin tələblərinə riayət edilməklə həyata keçirilir.

**Hüquqi şəxsin mühafizə bölməsi**

1. Mülkiyyət formasından asılı olmayaraq, Azərbaycan Respublikasının ərazisində yerləşən hüquqi şəxslər öz mühafizəsini təmin etmək məqsədi ilə xüsusi razılıq (lisenziya) əsasında mühafizə bölməsi yarada bilər.

2. Mühafizə bölməsi yaradan hüquqi şəxs aşağıdakılar göstərilməklə bölmənin Əsasnaməsini hazırlamalı və təsdiq etməlidir:

*2.1. mühafizə bölməsinin hüquqi şəxsin strukturunda yeri;*

*2.2. mühafizə bölməsi tərəfindən göstəriləcək mühafizə xidmətlərinin növləri;*

*2.3. mühafizə bölməsinin quruluşu və idarəçilik sistemi;*

*2.4. mühafizə bölməsinin rəhbərinin hüquq və vəzifələri, onun hüquqi şəxsin digər vəzifəli şəxsləri ilə tabeçilik münasibətləri;*